# Təpəbaşıdan düşən hər daş İrəvanın tarixidir



*Zəngin tarixi keçmişə malik ölkəmiz dünyanın ən qədim insan məskənlərindən biridir. Arxeoloji qazıntılar zamanı aşkarlanan çoxsaylı mədəniyyət nümunələri, bu günümüzə gəlib çatan qayaüstü təsvirlər, memarlıq abidələri uzaq keçmişimizdən xəbər verir. Qədim Azərbaycan torpaqlarında indiki Ermənistan yaradıldıqdan sonra haylar burada erməniləşmə prosesinə başlayıblar. Xüsusilə sonuncu deportasiyadan sonra xalqımıza məxsus tarixi-mədəni abidələrini dağıdaraq yer üzündən silməyə çalışıblar. İllərdir Ermənistanda Azərbaycan xalqına məxsus çoxəsrlik qədim tarixi-dini abidələr yerlə-yeksan edilir, bir qismi də saxtalaşdırılaraq erməniləşdirilir. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etməkdən ibarətdir.*

Belə qədim abidələrdən biri də İrəvanın mərkəzində yerləşən tarixi Təpəbaşı məhəlləsidir. Artıq abidənin böyük bir hissəsi dağıdılıb. Analoji hal bu gün də davam edir. Əslində bu proses illərdir davam edən məkrli siyasətin bir hissəsidir. Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq 30 illik işğal dövründə Qarabağ və Şərqi Zəngəzur bölgəsi də daxil olmaqla Azərbaycan xalqına məxsus bütün maddi-mədəni irsi məhv etməklə məşğul olmuşdur. 2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsi və düşmənin biabırçı məğlubiyyəti həmin xain planların təyinatını dəyişdi. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra dövlətimiz ermənilərə və bütün dünyaya sübut etdi ki, Qarabağ, eyni zamanda Qərbi Azərbaycan torpaqları Azərbaycan ərazisidir. Bu yerlər xalqımıza məxsus olub və bütün qədim abidələr də azərbaycanlıların irsini, mədəniyyətini əks etdirir. İrəvanın mərkəzində yerləşən Təpəbaşı məhəlləsi bu gün yeganə salamat qalan abidədir ki, özündə azərbaycanlıların izini, irsini, tarixini yaşadır. Əlbəttə, bu da ermənilərin narahatlığına səbəb olur. Onlar hər zaman apardıqları yalançı, saxta, qondarma tarixi təbliğata uyğun olaraq bu abidəni də məhv etmək fikrindədirlər.

Böyük bir ərazini əhatə edən Təpəbaşı məhəlləsinin bu gün cüzi bir hissi salamat qalıb. Bu tarixi ərazi Zəngi çayı ilə şəhər məhəlləsinin arasındakı təpəlikdə yerləşdiyinə görə, Təpəbaşı məhəlləsi adlandırılıb. Azərbaycanlıların yaşadıqları tarixi məhəllə İrəvanın qərb hissəsində yerləşir. Hazırda 16 hektara qədər kiçildilən ərazi məhv olmaq və yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir. Çar Rusiyasının 1828-ci ildən sonra qonşu dövlətlərdən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi siyasəti nəticəsində 374 nəfər İrandan, 18 nəfər isə Türkiyədən gələn erməni Təpəbaşı məhəlləsində azərbaycanlı ailələrin evlərinə müvəqqəti olaraq yerləşdiriliblər. Sonradan isə onlar Təpəbaşında Xan bağı adı ilə tanınan yerdə məskunlaşdırılıblar. Məqsədli şəkildə aparılan siyasi prosesə bugünkü faciələrin bünövrəsi qoyulub. İndiki zamanda belə bir tarixi abidənin - Təpəbaşının məhv edilməsinə dünya ictimaiyyətinin göz yumması yolverilməzdir. Çünki bu abidə dünya mədəni irsinin bir hissəsidir.

Azərbaycan dövləti dəfələrlə məsələ ilə bağlı beynəlxalq təşkilatlara müraciət etsə də, hələ ki, bu istiqamətdə müsbət addım atılmayıb. Erməni vandallığı qədim yurd yerləri olan Qərbi Azərbaycan torpaqlarında davam edir. Saxta tarix yaratmaq istiqamətində haylar ən iyrənc vasitələrdən belə istifadə edirlər. Belə ki, erməniləşdirmə siyasəti nəticəsində yüzlərlə qəbiristanlıq, 49 məscid, 68 tarixi, 7 memarlıq abidəsi erməni vandalları tərəfindən məhv edilib. Ermənistan ərazisində olan 300-dən çox məscid, o cümlədən Göy Məscid, Qala, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib xan, Hacı Novruzəli bəy məscidləri, Dəmirbulaq və yüzlərlə belə məscidlər qəsdən dağıdılıb. Bu gün İrəvanın tarixini özündə əks etdirən və azərbaycanlıların mədəni irsinin yeganə sübutu olan məkan yalnız Təpəbaşı məhəlləsidir. Qədim abidənin ərazisi - İrəvan şəhəri qala istisna olmaqla Dəmirbulaq və Təpəbaşı hissələrinə bölünürdü. Təpəbaşı məhəlləsində 1831-ci ildə 5 hamam olub. Hacı Bəyim, Hacı Əli, Qafar və Hacı Fətəli, Kərim bəy və Şeyxülislam hamamları. Bir zamanlar Təpəbaşı məhəlləsində 1 xan, 12 bəy, 6 mirzə, 20 molla və 10 seyid ailəsi yaşayıb. Zamanla əraziyə yerləşdirilən erməni ailələri məqsədli şəkildə azərbaycanlıları sıxışdırmış və İrəvan şəhəri başda olmaqla, bütün Qərbi Azərbaycan torpaqlarından soydaşlarımızı deportasiya etmişlər.



Əlbəttə ki, sonrakı mərhələdə aparılan işlər o qədər də çətin olmamışdır. Çünki hazırda bir nəfər də azərbaycanlının olmadığı qədim yurd yerlərimizdə xalqımıza məxsus bütün abidələrin dağıdılması prosesi olduqca rahat şəkildə həyata keçirilmişdir. Son günlər sosial şəbəkələrdə bir blogerin İrəvanın Təpəbaşı məhəlləsində yerləşən tarixi Azərbaycan məscidinin qalıqlarını yayımlaması geniş müzakirələrə səbəb olmaqla yanaşı, böyük narahatlıq yaratdı. Belə ki, həmin görüntülərdən aydın olur ki, məscid hazırda ermənilər tərəfindən spirtli içkilərin istehlak edildiyi məkana çevrilib. Ermənilərin bu kimi əməlləri dəfələrlə təkrar edilib. Qarabağ və Şərqi Zəngəzur bölgəsi işğalda olan zaman haylar Zəngilan məscidində də donuz saxlamaqla öz iyrənc xislətlərini nümayiş etdirmişdilər. Bu gün isə Təpəbaşı məscidində spirtli içki istehlak etməklə Azərbaycan xalqına qarşı hörmətsizlik nümayiş etdirirlər.

Qərbi Azərbaycanda, indi Ermənistan adlanan ərazidə xalqımıza məxsus tarixi-mədəni və dini abidələri saymaqla bitməz. Haylar bu memarlıq abidələrinin hamısını dağıdıb yararsız hala salıblar. Göründüyü kimi, erməni xisləti hər yerdə özünü büruzə verir. Vəhşi toplum qədim tarixi özündə yaşadan ərazini erməniləşdirmək istəyir. Məqsədlərini həyata keçirmək üçün isə abidələri məhv edirlər. Bu, bir dövlətin tutduğu mövqe, siyasi xətt və zəif iradənin göstəricisidir.

Azərbaycan dövləti hər zaman sülhsevər mövqeyini qorumaqla yanaşı, ərazisində olan başqa millətlərə aid abidələrə də hörmətlə yanaşıb. Bu gün Bakıda erməni kilsəsini bir abidə olaraq qorumağımız dünya mədəni irsinə necə yanaşmağımızın göstəricisidir. Ermənistanın vandallığına isə dünyanın laqeyd yanaşması sadəcə Azərbaycan mədəniyyətinin deyil, həm də dünya mədəni irsinin məhv olmasına göz yummaqdır.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 13 fevral (№ 32).- S.13.